## Alim Qasımovun Təbrizdə Ən Son Konserti

Mənbə: Azerbaijan İnternational jurnalı - Aİ 9.1 (Yaz 2001)
© Azerbaijan İnternational

2001-ci il martın 3-15-də Alimin İranda—Təbrizdə bir neçə uğurlu çıxışı oldu. Bu Alimin çox vaxt cənubi Azərbaycan adlandırılan bu yerdə ən çox azərbaycanlı əhalisi olan Təbriz şəhərinə ilk gəlişi idi. Təbriz böyüklüyünə görə İranın üçüncü böyük şəhəridir, 2 milyondan çox əhalisi var. Təbrizin əhalisi bir çox ildir ki, Alimdən onların şəhərində konsert verməsini xahiş edirdilər. Muğam ustası İranda yalnız bir dəfə—1993-cü ildə Tehranda festivalda çıxış etmişdi.

Əslində Alim Təbrizdə beş konsert verməyi nəzərdə tutmuşdu. Lakin maraq o qədər artdı ki, gündə iki konsert olmaqla 10 konsert vermək qərara alındı. Zalın 700 nəfərlik olmasına baxmayaraq hər bir çıxışa 1000 nəfər gəlirdi. Bu çıxışlara bilet tapmaq çox çətin idi. Hər bir konsertin bir saat davam etməsi nəzərdə tutulmuşdu, lakin onlar adətən bir saat yarım və ya iki saat davam edirdi. Son konsert isə iki saat yarım davam etdi.

Deyilənə görə Alim Azərbaycan xalq mahnısı "Sarı Gəlini" ifa edərkən konsert təşkilatçıları zalda yaylıq paylamalı oldular. Çünki musiqi zalda əyləşən qadın və kişilərin çoxunun ürəyinə toxunmuşdu və onlar ağlamağa başlamışdılar. 1960-cı illərdən başlayaraq Azərbaycan musiqi çıxışlarına çox icazə verilmirdi. Yalnız bir qədər əvvəl hökümət azərbaycanlılara kütləvi şəkildə çıxış etmək imkanı vermişdir. Alimin 21 yaşlı qızı Fərqanə adətən onunla birgə çıxış edir, lakin o, İranda çıxış etmədi. Tamaşaçılar arasında kişilər olanda qadınlara səhnədə solo oxumaq icazə verilmir.

Alim konsertdən gedəndə onun pərəstişkarları maşını dövrəyə aldılar. Qızlardan biri əlini pəncərədən salıb Alimdən onun əlinin üstünə qol çəkməsini xahiş etdi. Amma Alim bunu etmədi, çünki İran qanunlarına görə qadının əlinin üstündə qol çəkməyə icazə verilmir.

İranda Azərbaycan musiqisi meylləri haqda daha ətraflı məlumat almaq üçün bu nömrəmizdə (Aİ 9.1) Rəhim Şəhriyari haqda olan məqaləyə baxın.

---

Tərcümə: Gülnar Aydəmirova
Veb üçün hazırlayan və redaktə edən: Arzu Ağayeva